# HƏZRƏT FATİMEYİ MƏSUMƏ (ƏLƏYHA SALAM)- IN HƏYATINA BİR BAXIŞ

<"xml encoding="UTF-8?>

HƏZRƏT FATİMEYİ MƏSUMƏ (ƏLƏYHA SALAM)- IN HƏYATINA BİR BAXIŞ

Bağışlayan və mehriban Allahın adı ilə

O həzrətin adı Fatimə, məşhur ləqəbi isə «Mə’sumə»-dir. Atası, şiələrin yeddinci imamı Musa ibn Cə’fər (imam Kazim) əleyhis-salam, anası isə səkkizinci imam həzrət Rza .(əleyhis-salam)-ın anası sayılan Nəcmə Xatun (ələyha-salam)-dır

Beləliklə də həzrət Mə’sumə (ələyha-salam) və imam Rza (ələyhis-salam) bir ata-.anadan dünyaya gələn bacı və qardaşdılar

O həzrət hicri-qəməri tarixi ilə 173-cü il, Ziqə’də ayının 1-də müqəddəs Mədinə .şəhərində dünyaya göz açmışdır

Uşaqlıq dövranında ikən Bağdad şəhərində Harunun zindanında həbs olunmuş atasının şəhid edilməsi hadisəsi ilə üzləşmiş və ondan sonra qardaşı həzrət imam Rza (ələyhis-.salam) onu öz himayəsi altına alaraq saxlamışdır

Hicri-qəməri tarixi ilə 200-cü ildə Mə’mun Abbasinin tə’kid və hədə-qorxularından sonra imam Rza (əleyhis-salam) sürgünə bənzəyən Mərv səfərinə düzəlmiş və yanında Əhli-.beytindən heç bir kəs olmayan halda Xorasana getmişdir

Qardaşının hicrətindən bir il keçdikdən sonra, imam Rza (ələyhis-salam)-ı görmək şövqündə olan həzrət Mə’sumə (ələyha salam) bir dəstə qardaşı və qohumu ilə .Xorasana tərəf yola düşdü

Keçdikləri bütün şəhər və məhəllələrdə xalq onları təntənə ilə qarşılayır, onlara .məhəbbət və qonaqpərvərlik göstərirdi

Həzrət Mə’sumə (ələyha salam) da böyük bibisi həzrət Zeynəb (ələyha salam) kimi qardaşı imam Rza (əleyhis-salam)-ın məzlumiyyəti və qürbətini mö’min və müsəlman xalqlara çatrırır, həmçinin onlara özü və Əhli-beytin Bəni-Abbasın hiyləgər hökumətinə .qarşı olan müxalifətini bəyan edirdi

Karvan «Savə» şəhərinə çatdıqda, hökumət mə’murlarının himayə etdiyi bir dəstə Əhli-.beyt müxalifləri onların qabağını kəsərək onlarla vuruşmağa başladılar

Nəticədə təxminən karvanın bütün kişiləri şəhid olub, bir rəvayətə əsasən həzrət .Mə’sumə (ələyha salam) isə zəhərləndi

Hər halda o həzrət ya çoxlu qəm-qüssə və yaxud zəhər nəticəsində xəstələndi və .Xorasana getməkdən aciz qalıb, Qum şəhərinə tərəf yola düşdü

?O həzrət soruşdu: Bu «Savə» şəhərindən «Qum» şəhərinədək nə qədər yol vardır

Yolun miqdarını o həzrətə dedikdə, buyurdu: «Məni Qum şəhərinə aparın. Çünki .«atamdan eşitmişdim ki, (belə) buyururdu: «Qum şəhəri bizim şiələrimimzin mərkəzidir

Qum şəhərinin ağsaqqalları bu sevindirici xəbəri eşitdikdə, o həzrəti (ə) qarşılamağa .getdilər

Əş’əri» qəbiləsinin ağsaqqalı «Musa ibn Xəzrəc» o həzrətin dəvəsinin cilovunu tutmuş,» xalqın çoxu isə piyada və minik halında həzrətin əyləşdiyi kəcavəni əhatəyə almışdılar. Həzrət Mə’sumə (ələyha salam) hicri-qəməri tarixi ilə 201-ci ilin təqribən Rəbiul-əvvəl .ayının 23-də müqəddəs Qum şəhərinə daxil oldu

Daha sonra «Mir meydanı» adlanan bir yerdə (Musa ibn Xəzrəcin şəxsi mənzili .qarşısında) kəcavədən enib, onun qonağı oldu

O həzrət on yeddi gün müddətində bu şəhərdə yaşamış və bu müddətdə ibadətlə məşğul olmuşdur. O həzrətin ibadət etdiyi yer, bu günədək «Sittiyyə mədrəsəsində» - .«Beytun-nur» adı ilə məşhurdur. O yer ziyarətgah sayılır

Beləliklə də Rəbius-sani ayının onu və başqa rəvayətə əsasən on ikisi (201 h. q.), həzrət öz qardaşı imam Rza (əleyhis-salam)-ı görmədən, qürbət yerdə böyük qəm-qüssə ilə

.dünyasını dəyişib, şiələri matəmə qərq etdi

Qum əhalisi o həzrətin pak bədənini böyük təntənə ilə bu günkü hərəm yerində olan o .zamankı «Babilan bağına» apardılar

.Qəbr hazır olduqda, o həzrətin kimin əli ilə dəfn edilməsində çətinliklə üzləşdilər

Elə bu vaxt qiblə tərəfdən üzlərinə niqab çəkmiş iki atlı sür’ətlə onlara yaxınlaşdı. Namaz qıldıqdan sonra onlardan biri qəbrin içərisinə daxil oldu, digəri isə həzrətin pak cəsədini .qaldıraraq ona verdi

O iki nəfər işlərini qurtardıqdan sonra heç bir kəslə danışmadan öz atlarına minib oradan .uzaqlaşdılar

O iki nəfərin Allah-taalanın iki höccəti sayılan həzrət imam Rza (əleyhis-salam) və imam Cavad (əleyhis-salam) olması nəzərə çarpır. Çünki şəriət qaydalarına əsasən günahsız qadın bədəni günahsız şəxsin əli ilə dəfn olunmalıdır. Belə ki, həzrət Fatimə (ələyha salam)-ı Əmirəl mö’minin Əli (əleyhis-salam) və həzrət Məryəm (ələyha salam)-ı İsa .(ələyhis-salam) şəxsən dəfn etmişdir

Həzrət Mə’sumə (əleyhis-salam)-ın dəfnindən sonra Musa ibn Xəzrəc onun müqəddəs .qəbrinin üzərində qamışdan toxunmuş həsirdən bir örtük düzəltdi

Hicri-qəməri tarixi ilə 256-cı ildə isə imam Cavad (əleyhis-salam)-ın qızı Zeynəb (ə), o .həzrətin qəbri üzərində ilk dəfə olaraq günbəz tikdirdi

Beləliklə də həzrət Mə’sumə (ələyha salam)-ın müqəddəs qəbri Əhli-beyt (əleyhimus-salam)-ın ardıcılları, həmçinin vilayət və imamət aşiqlərinin ziyarətgahı və şəfa yerinə .çevrildi